# C# ilə çox dilli program

**Elvin Yusifli**

**2012**

# C# ilə çox dilli program

Yeni məqaləmdə xoş gördük sizləri. Bu məqaləmdə sizlərə çox dilli proqram yazmağın yollarından biri göstərəcəyəm inanıram ki yararlı bir məqalə olar.

İlk əvvəl proqramın yazılmasına başlamaq üçün sizdə Visual Studio 2005/2008/2010/2012 versiyalarından birinin olması lazımdır.Yoxdursa internetdən yükləyə bilərsiniz.

İlk əvvəl biz proqramımızda nələrdən istifadə edəcəyik ondan danışaq. Biz proqramımızda Localization və Resource fayldan istifadə edərək C#(Csharp) –da necə çoxdilli program yazacağıq buna baxacağıq. Bunun üçün ilk əvvəl bir proyekt yaradırıq.

***File – New - Project***



İlk əvvəl Form1 aşağıdakı formada dizayn edirik. (Siz istəsəniz başqa formada da dizayn hazırlaya bilərsiniz).




Bizim dizayn etdiyimiz ilk **Form Default** olaraq **İngilis** dilində olur. Biz localization-dan istifadə edəcəyimiz üçün **Form** parametrlərində dəyişikliklər etməliyik ilk əvvəl **Localizable** aktiv etməyimiz lazımdır.



Mən öz proyektimdə 2 dil nəzərdə tutmuşam **İngilis** və **Azərbaycan**. Biz **İngilis** dilində Form1-i dizayn etdik indi isə **Azərbaycan** dilində olacaq Form1-i üçün düzəlişlərimizi edək bunun üçün:




**Language Azeri Latin** seçirik və Form1-də yeni dəyişikliklərimizi yəni tərcümələrimizi edirik.



Bu şəkildədə göründüyü kimi Form1 başlığında **Azərbaycan** dili üçün hazırlanan form olduğu üçün Azerbaijan yazılıb.Biz tərcümələri etdikdən sonra Form1 altında Form1.az-Latn-AZ.resx faylının yarandığını görəcəyik.Bu fayl içində Azərbaycan dilində olan Resource mətni saxlanılır.




Bu tərcümələrimizi etdikdən sonra bizə qalır proqram işləyən zaman dil dəyişikliyin necə edəcəyik onu təyin etmək. Bunun üçün biz `DilSec` metodundan istifadə edəcəyik.

```
// Form1-ə yeni dilin əlavə olunması.
private void DilSec(string dil)
{
    // Dil məlumatının yaradılması.
    CultureInfo dil_melumati = new CultureInfo(dil);

    // ResourceManagerin yaradılması
    ComponentResourceManager r_manager
        = new ComponentResourceManager(this.GetType());

    // Yeni resource-nin form1 tətbiq olunması
    r_manager.ApplyResources(
        this, "$this", dil_melumati);

    // Yeni resource-nin form1 elementlərinə tətbiq edilməsi
    foreach (Control elm in this.Controls)
    {
        r_manager.ApplyResources(
            elm, elm.Name, dil_melumati);
    }
}
```

Yuxarıda göstərilən metod vasitsəsi ilə biz dil seçimini edəcəyik. Bunu istifadə etmək üçün **radioButton1**-nin **CheckedChanged** və **radioButton2**-nin **CheckedChanged** aşağıdakı kodları yazırıq.

```
private void radioButton1_CheckedChanged(object sender, EventArgs e)
{
  //Proqrama Azərbaycan dilinin seçilməsi
  DilSec("az-Latn-AZ");
}


private void radioButton2_CheckedChanged(object sender, EventArgs e)
{
  //Proqrama İngilis dillin seçilməsi
  DilSec("en-US");
}
```

Proqramı işə salıb baxsanız işlədiyini və dilləri dəyişən zaman dilin dəyişdiyini görəcəksiniz. İndi isə bizə çox lazım olan bir məsələ var hansı ki, kodların daxilində istifadə olunan sözlərin dil dəyişən zaman dəyişdirilməsi. Bunun üçün biz **Resource** faylından istifadə edəcəyik. Proyektimizə bir Resourca fayl əlavə edirik.






Burda **Name** dəyişirik **StringLocal.resx** yazırıq və **Add** edirik. Bunlarıda etdikdən sonra həmin **StringLocal.resx** faylın bir kopyasını yaradırıq və adını **StringLocal.az-Latn-AZ.resx** yazırıq.(az-Latn-Az seçdiyimiz dilə görədir)




Bunlarıda yerinə yetirdikdən sonra hər birini açıb yeni **Value** əlavə edirik.Mən hər iki faylın içinə **alert** və **welcom** adında iki **value** əlavə edəcəyəm.







Bunlarıda hazırladıqdan sonra sıra gəlir bunları proqramımızda necə istifadə etməyimizə. İndi **button1**-ə **Click**-inə kiçik bir kod yazaq.

```
private void button1_Click(object sender, EventArgs e)
{
    //Hər iki TextBox boş olarsa Alerti ekrana çıxaraq
    if (textBox1.Text=="" || textBox2.Text=="")
    {
        //Burda biz Resource fayldan Alert içindəki mətni çağırırıq.
        MessageBox.Show(StringLocal.alert);
    }
    //Hər iki TextBoxa "1" daxil edilərsə Welcom ekranaçıxaraq.
    if (textBox1.Text=="1" || textBox2.Text=="1")
    {
        //Burda biz Resource fayldan Welcom içindəki mətni çağırırıq.
        MessageBox.Show(StringLocal.welcom);
    }
}
```

Bunları etdikdən sonra programımızı işə salıb yoxlasaq dil dəyişsədə ekrana çıxan mesajların dəyişmədiyini görəcəyik. Bunun üçün aşağıdakı kodları bu şəkildə düzəliş edirik. Bunun məqsədi işləyən proqramın dilini dəyişməkdir.

```
private void radioButton2_CheckedChanged(object sender, EventArgs e)
{
  //Proqrama İngilis dillin seçilməsi
  Thread.CurrentThread.CurrentCulture = new CultureInfo("en-US");
  Thread.CurrentThread.CurrentUICulture = new CultureInfo("en-US");
  DilSec("en-US");

}

private void radioButton1_CheckedChanged(object sender, EventArgs e)
{
  //Proqrama Azərbaycan dilinin seçilməsi
  Thread.CurrentThread.CurrentCulture = new CultureInfo("az-Latn-AZ");
  Thread.CurrentThread.CurrentUICulture = new CultureInfo("az-Latn-AZ");
  DilSec("az-Latn-AZ");
}
```

İndi proqramı işə salaq və yoxlayaq.


















Şəkillərdəndə göründüyü kimi proqram səhvsiz düzgün bir şəkildə işləyir.

Bununlada bu məqaləmizin sonuna gəldik.

Suallarınız və qaranlıq qalan bir məqam üçün müraciət edə bilərsiniz.

---

Elvin Yusifli

http://facebook.com/elvin.yusifli